

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 184 (23.095)

28 sentyabr 2018-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Sentyabrın 27-də cüdo üzrə dünya çempionatı çərçivəsində qarışıq komanda yarışları keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri, ölkəmizdə işgüzar səfərdə olan Rusiya Prezidenti Vladimir Putin, Monqolustan Prezidenti Xaltmaaqiyn Battulqa və Beynəlxalq Cüdo Federasiyasının prezidenti Marius Vizer yarışlara baxıblar.

* * *

Sentyabrın 27-də Heydər Əliyev Mərkəzində IX Azərbaycan-Rusiya Regionlararası Forumunun rəsmi açılış mərasimi olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin mərasimdə iştirak ediblər.

Azərbaycan və Rusiya prezidentləri açılış mərasimində çıxış ediblər.

* * *

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə təkbətək görüşü olub.



## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Küveyt Dövlətinin ölkəmizdəki səfiri ilə görüşüb



Sentyabrın 27-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Küveyt Dövlətinin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Səud Əbdüləziz əl-Rumi ilə görüşüb.

Ali Məclisin Sədri qonağı salamlayıb və onu Naxçıvanda görməkdən məmnunluğunu bildirib. Muxtar respublikanın inkişafı sahəsində görülən işlərdən bəhs edən Ali Məclisin Sədri Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Küveyt Dövləti arasında qarşılıqlı əlaqələrin inkişafı üçün imkanların olduğunu diqqətə çatdırıb, Səud Əbdüləziz əl-Ruminin səfərinin bu baxımdan səmərəli olacağına əminliyini ifadə edib.

Səmimi qəbula görə minnətdarlıq edən Səud Əbdüləziz əl-Rumi muxtar respublikanın istehsal müəssisələri və tarixi abidələri, o cümlədən Duzdağ Fizioterapiya Mərkəzi ilə tanışlığın onda böyük təəssürat yaratdığını bildirib. Naxçıvan Muxtar Respublikası ilə əlaqələrin inkişafına mühüm əhəmiyyət verdiklərini qeyd edən diplomat bu sahədə səylərin artırılacağını vurğulayıb.

Görüşdə gələcək əməkdaşlıq imkanları müzakirə olunub.

Sonda xatirə şəkli çəkdirilib.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Küveyt səfiri muxtar respublikanın istehsal, sənaye və mədəniyyət müəssisələri ilə yaxından tanış olub

*Küveyt Dövlətinin Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Səud Əbdüləziz əl-Rumi Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində buradakı istehsal, sənaye və mədəniyyət müəssisələri ilə yaxından tanış olub.*





Diplomat əvvəlcə ümummilli liderimiz Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsi önünə gül dəstələri qoyub, Heydər Əliyev Muzeyini ziyarət edib.

Yerli istehsal məhsullarının sərgiləndiyi Naxçıvan Biznes Mərkəzində qonağa məlumat verilib ki, muxtar respublikamızda sahibkarlıq fəaliyyətinin davamlı olaraq dəstəklənməsi, yeni istehsal müəssisələrinin yaradılması nəticəsində 382 növdə məhsul istehsal olunur. Bunun da 126 növü ərzaq, 256 növü isə qeyri-ərzaq məhsullarıdır.

Səfir Naxçıvan Avtomobil Zavodunun istehsal potensialı ilə də maraqlanıb. Bildirilib ki, burada istehsal prosesi konveyer üsulu ilə təşkil edilib. Zavod Azərbaycanda yeganə müəssisədir ki, avtomobillərin bütün hissələri burada yığılır. Bu da zavodda istənilən modeldə minik və yük avtomobillərinin istehsalına imkan verir.

"Gəmiqaya Mineral Sular" Məhdud Məsuliyyətli Cəmiyyəti ilə tanış olan səfirə məlumat verilib ki, müəssisədə 12 çeşiddə mineral su istehsal olunur. Zavodda məhsulun keyfiyyətinə ciddi nəzarət edilir.

Diplomat "Gəmiqaya Mebel Fabriki" Məhdud Məsuliyyətli Cəmiyyətinin fəaliyyəti ilə də maraqlanıb.

"Gəmiqaya Daş Məhsulları Sənaye Kompleksi" Məhdud Məsuliyyətli Cəmiyyətində səfirə bu müəssisənin istehsal gücü, burada istehsal olunan məhsulların çeşidi haqda ətraflı məlumat verilib. Qeyd olunub ki, Kəngərli rayonunun Qarabağlar və Çalxanqala kəndləri ərazilərindəki zəngin yataqlardan çıxarılan travertin və mərmər daşlar emal üçün bu müəssisəyə gətirilir. Məhsul buraxılışında istifadə edilən daşlar təbii olaraq antibakterial keyfiyyətə malikdir. Müəssisədə Türkiyə istehsalı olan "Sesemak" markalı avadanlıqlar quraşdırılıb. Böyük və kiçikölçülü travertin plitələrdən, əsasən, binaların fasadının və həyətyanı sahələrin bəzədilməsində, mozaik travertinlərdən isə müxtəlif naxışlı bəzək üzlüklərinin hazırlanmasında istifadə olunur. Gündəlik maksimum istehsal gücü 2000 kvadratmetr olan müəssisədə klassik ağ və qara suyollu travertin məhsulları ilə yanaşı, Naxçıvan sədəfi və qara inci mərmər, sienit də istehsal edilir. Həmçinin müəssisədə dekorasiya sexi də fəaliyyət göstərir. Burada müasir texnoloji avadanlıqlar quraşdırılıb.

Səud Əbdüləziz əl-Rumi "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksini də ziyarət edib. Tanışlıq zamanı səfirə Əshabi-Kəhfin sirli tarixi barədə ətraflı məlumat verilib.

Küveyt Dövlətinin Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Naxçıvan Dövlət Xalça Muzeyində, "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində və Duzdağ Fizioterapiya Mərkəzində də olub.

Qonaq "Şərq qapısı" qəzetinə müsahibəsində Naxçıvanın tarixi-memarlıq abidələrinə heyranlığını ifadə edərək deyib:

– Naxçıvana səfərim zamanı bu qədim diyarın tarixi və mədəniyyəti ilə yaxından tanış oldum. Buradakı muzeylərlə və Əshabi-Kəhf ziyarətgahı ilə, həmçinin İslam mədəniyyəti nümunələri olan abidələrlə tanışlığım zamanı Naxçıvanın, həqiqətən də, qədim bir tarixə malik olduğuna şahidlik etdim. Əshabi-Kəhf ziyarətgahında yaradılan şərait mənim, xüsusilə diqqətimi cəlb etdi. Bütün bunlar deməyə əsas verir ki, Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı seçilməsi heç də təsadüfi deyil. Həmvətənlərimə də burada gördüklərim haqqında ətraflı məlumat verəcəyəm.

Naxçıvandakı istehsal sahələri ilə tanışlığın onda dərin təəssüratlar yaratdığını, muxtar respublikanın ixrac imkanları barədə aydın təsəvvür formalaşdırdığını diqqətə çatdıran səfir deyib: – "Gəmiqaya Mebel Fabriki" və "Gəmiqaya Daş Məhsulları Sənaye Kompleksi"ndə olarkən həmin müəssisələrdə yüksəkkeyfiyyətli məhsullar istehsal edildiyini gördüm.

Biz Naxçıvan Dövlət Xalça Muzeyində də olduq. Burada çox gözəl qədim xalçalar nümayiş etdirilir. Onu da öyrəndik ki, bu gün muxtar respublikada qədim xalçaçılıq ənənələri yaşadılır, Naxçıvan şəhərində xalça istehsalı emalatxanası tikilir. Ümid edirəm ki, gələcəkdə bu qədim diyarda xalça istehsalı artacaqdır. Bizim ölkəmizdə xalçaya böyük tələbat var. İnanıram ki, həmin vaxt biz Naxçıvandan xalça idxal edə biləcəyik. Ümumiyyətlə, düşünürəm ki, Küveytlə Azərbaycanın Naxçıvan Muxtar Respublikası arasında iqtisadiyyat və turizm sahəsində geniş əməkdaşlıq imkanları mövcuddur.

**Nail ƏSGƏROV**
**Tural AĞAYEV**

## Naxçıvan Biznes Mərkəzində təlim keçirilib



*Sentyabr ayının 27-də Naxçıvan Biznes Mərkəzində Beynəlxalq Ticarət Mərkəzinin (İTC) dəstəyi ilə Avropa İttifaqına məhsul ixracı imkanları, bazar tələbləri, müasir marketinq alətləri, beynəlxalq sərgilərdə iştirak qaydaları və daha yaxşı nəticələrin əldə edilməsi mövzularında təlim təşkil edilib.*

Təlim müddətində marketinq və təbliğat işinin təşkili, logistika və nəqliyyat imkanlarından səmərəli istifadə, məhsulların qablaşdırılması, məhsul istehsalına dair beynəlxalq standartlar, Avropa istehlakçılarının tələbləri və bu kimi bir çox məsələyə dair müzakirələr aparılıb və beynəlxalq təcrübə haqqında sahibkarlar məlumatlandırılıblar.

Mərkəzin dəstəyi ilə 2018-ci il 21-25 oktyabr tarixlərində Paris şəhərində keçiriləcək "Sial-Paris" beynəlxalq qida sərgisində muxtar respublikadan iştirak edəcək 4 şirkətin nümayəndələrinə alıcı şirkətlərlə biznes görüşlərin təşkili qaydaları və səmərəli təbliğat işinin qurulması sahəsində tövsiyələr verilib.

Təlimdə Amerika Birləşmiş Ştatlarının "Konsaltinq" şirkətinin vitse-prezidenti, ixrac üzrə ekspert Şon Dulin və Beynəlxalq Ticarət Mərkəzinin Azərbaycan üzrə layihə rəhbəri Eldar Adilzadə iştirak ediblər.

**Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti**

# Yerli pərakəndəçilikdə yeni trendlər

*Pərakəndəçiliklə bağlı mövzuya qəzetimizin ötən saylarında bir neçə dəfə toxunmuşuq. Mövzuya yenidən qayıtmağımızın səbəbi odur ki, bu sektor biznesin aynası sayılır və istənilən ölkədə iqtisadiyyatın lokomotivi hesab olunur. Eyni zamanda istehsalçı ilə istehlakçını görüşdürən, iqtisadi dildə desək, tələb və ehtiyacları tənzimləyən, keyfiyyətli məhsulu tanıdan, brendə çevirən, keyfiyyətsiz məhsulu isə bazardan çıxaran böyük bir sektordur. Maraqlı burasıdır ki, pərakəndəçilik sektoru həm də istehsalçılara birbaşa məhsulu necə istehsal etməyi diktə edən bir şəbəkədir. Məhz bu şəbəkənin ortaya qoyduğu nəticələrlə sahibkarlar bazarın tələbini anlayır, hansı məhsulu nə zaman və necə satışa təqdim etməyi planlaşdırırlar. Təbii ki, zaman keçdikcə pərakəndəçilik sektoru da inkişaf edir, bir sıra yenilikləri özündə cəmləşdirir. Fikir versək, görərik ki, ölkəmizdə bu sektorun yaşı, elə müstəqilliyimizin yaşı qədərdir. Çünki pərakəndəçilik bazar iqtisadiyyatına məxsus iqtisadi meyarları özündə cəmləşdirir.*





Müstəqilliyimizin ilk illərində ölkəmizin hər yerində olduğu kimi, muxtar respublikamızda da iqtisadiyyatın iflic vəziyyətinə düşməsi, istehlak mallarının qıtlığı, xaricdən gətirilən idxal məhsullarının antisanitar formada satışı bu sektorun yarandığı ilkin dövrlərə təsadüf edirdi. Ərzaq və yuyucu məhsulların, bəzi hallarda bir neçə geyim aksesuarının eyni rəfdə yerləşdirildiyi belə satış obyektlərinin sahiblərinin əksəriyyəti bu sahəyə işsizlik ucbatından gəlmiş insanlar idilər. Növbəti illərdə muxtar respublikamızda yeni infrastruktur tədbirlərinin aparılması, iqtisadiyyatın nisbətən yaxşılaşması pərakəndəçilik sektorunun inkişafına da öz təsirini göstərirdi. Nəticədə, şəhər





və rayon mərkəzlərində küçə ticarətinin əsas özəyi hesab olunan köşklər yerini nisbətən ümumi ixtisaslaşmış mağazalara və yeni yaradılmış marketlərə ötürürdü. 2000-ci ilin əvvəllərindən başlayaraq pərakəndə ticarətdə yeni mənzərə formalaşırdı. Bu mənzərə isə müasir marketlərin sayının artması, şəhərdəki bazarların fəaliyyətinin nisbətən yaxşılaşması ilə izah oluna bilər. Buna görədir ki, bazar obyektlərində və ya bu obyektlərin ətrafında mağazaların sayının artması sektora da öz təsirini göstərirdi. Digər təsir isə ondan ibarət idi ki, artıq yerli məhsulları istehsal edəcək müəssisələr yaranır və ildən-ilə belə müəssisələrin sayı artırdı. Təxminən, 2010-cu ildən sonra isə muxtar respublikada pərakəndə ticarətdə müxtəlif yeniliklərin tətbiqini görürük. Bu yeniliklər nədən ibarətdir?

Birinci ondan başlayaq ki, bu dövrədək elə paytaxt Naxçıvan şəhərində aparılan böyükhəcmli tikinti-quruculuq tədbirləri çərçivəsində yeni bazar kompleksləri, böyükhəcmli marketlər, tikilmiş və ya yenidən qurulmuş ticarət mərkəzləri artıq pərakəndə ticarətdə yeni dövrün başlanmasından xəbər verirdi. Burada bir amili də qeyd etmək lazımdır ki, yeni mərhələnin başlanmasında dövlət tərəfindən sahibkarlığa göstərilən lazımi qayğı və bunun da nəticəsində yüzlərlə növ və çeşiddə məhsul istehsal edən yerli müəssisələrin sayının artması, ilbəil idxaldan asılılığın azaldılması, 2009-cu ildən isə muxtar respublika iqtisadiyyatında müsbət saldonun yaranması və sair böyük rol oynayıb. Sektorun nailiyyətlərindəndir ki, bu gün biz yerli istehsalçıların özlərinin pərakəndə ticarətdə satış obyektlərini görürük. Məsələn, "Cahan Holdinq", "Gəmiqaya Holdinq", "Dizayn Holdinq" kimi iri özəl sektor təmsilçiləri ilə yanaşı, "Fərdə" şirniyyat, "Zümrüd Tikiş" və adlarını sadalamadığımız onlarla belə müəssisənin artıq paytaxt Naxçıvan şəhərində və rayon mərkəzlərində özəl mağazaları fəaliyyət göstərir. Pərakəndə ticarətin pioneri hesab olunan alman iqtisadiyyatında belə nümunələrə daha çox rast gəlmək mümkündür. Bu, onu göstərir ki, müasir istehsalçılar istehlakçıdan gələn istək və tələbləri ilk olaraq özü görür, dəyərləndirir və bəzi hallarda bazarda yeni trendləri tətbiq edir. Bəs bu gün biz pərakəndə ticarətə baxdıqda hansı yeniliklərin şahidi oluruq? Təbii ki, sadalayacağımız trendlər sırf muxtar respublikamızın pərakəndə sektorunu əhatə edir.

Naxçıvan ərazicə kiçik olsa da, strateji baxımdan bir çox ölkələrlə iqtisadi əlaqələrin böyük potensialı olduğu bölgədir. Dünya təcrübəsində belə anklav bölgələr bəzi hallarda insan sağlamlığı üçün zərərli, geni dəyişdirilmiş, ucuz və keyfiyyətsiz malların trafiki üçün dəhliz rolunu oynasa da, muxtar respublikada istənilən idxal məhsulun keyfiyyəti ciddi nəzarətə alınır. Bu nəzarətin nəticəsində, eyni zamanda daxili bazarda keyfiyyətli məhsullar böyük yer tutur. Yəni məsələn, 15-20 il bundan əvvəl bazardan, yaxud ticarət obyektlərindən hər hansı bir ərzaq məhsulu alan şəxs müəyyən mənada malın keyfiyyətinə şübhə ilə yanaşırdısa, bu gün naxçıvanlı istehlakçı artıq bu haqda heç nə düşünmür. Çünki yerli məhsulların istehlakı ilə bağlı insanların alt düşüncəsində məxsusi bir arxayınlıq hissi var. Pərakəndə ticarətin istehlakçıya ilk vədi onu inandırmaq olduğundan, burada etibarlılıq çox mühüm şərtdir. Bu gün artıq Naxçıvanda ərzaq və qeyri-ərzaq məhsulları istehsalçıları potensial müştərilərini öz məhsullarının keyfiyyətinə inandıra biliblər. Bu, Naxçıvanda pərakəndə sektorun ən böyük uğurudur.

Bir zamanlar pərakəndə ticarətlə, xüsusilə mağazaçılıqla məşğul olmaq istəyənlər yer seçimində şəhərin mərkəzi hissəsinə daha çox meyil edirdilər. Səbəb də o idi ki, mərkəz əhalinin böyük bir qisminin hərəkət etdiyi hissədir və bu cür yerlərdə fəaliyyət göstərən ticarət obyektlərinə müraciət edənlər çoxdur. Bu da, nəticədə, satışa təsir edir. Ancaq müasir dövr dünya pərakəndəçiliyi təsdiq edir ki, şəhərdən kənarda da böyük ticarət mərkəzləri üstün perspektivlərə malikdir. Birinci ona görə ki, müasir dövrdə parkinqi olmayan ticarət mərkəzləri düşünmək çətindir. Çünki avtomobillə hərəkət geniş yayıldığından insanların çoxu alış-verişə nəqliyyat vasitəsilə gedir. Bu həm də alınan məhsulların evə daşınması üçün əlverişlidir. Şəhərin mərkəzi hissələrində isə yeni dayanacaqlar salmaq məhdudiyyət yaratdığından, eyni zamanda avtomobillərin hərəkəti çətin olduğundan potensial istehlakçılar da alış-veriş üçün şəhərdən kənara getməyə üstünlük verirlər. Bu vəziyyət dünyanın yüz mindən çox sakini olan istənilən şəhərində eynidir. Həmçinin nəzərə alaq ki, müasir istehlakçı indi alış-verişə təkcə ticarətə ayırdığı zaman kimi baxmır. İnsanlar indi bu zaman çərçivəsində həm də əylənməyi, istirahət etməyi düşünürlər. Buna görə də müasir ticarət mərkəzlərinin çoxunda indi müxtəlif iaşə xidmətləri göstərilir. Bəzi yerlərdə uşaqların da əylənməsi üçün müxtəlif attraksionlar quraşdırılır. Ümumilikdə isə bütün bunlar pərakəndəçilikdə çox güclü marketinq elementləridir. Bu tip alış-veriş mərkəzlərini biz indi Naxçıvan şəhərinin timsalında daha yaxından görürük.

Pərakəndəçilikdə digər bir yenilik isə ixtisaslaşmış mağazaların sayının artmasıdır. İstər ərzaq, istər elektronika, istərsə də tikinti materialları olsun, artıq zaman keçdikcə insanlar alacaqları məhsulun növ və çeşidinə daha çox diqqət edirlər. Buna görədir ki, indi paytaxt Naxçıvan şəhərində müxtəlif musiqi alətlərinin, yuyucu tozların, unlu şirniyyat məmulatlarının və sairin satıldığı ixtisaslaşmış mağazalar mövcuddur. Halbuki on il bundan əvvəl yerli istehlakçıların belə seçim etməyə imkanları yox idi.

Bir az bundan əvvəl alman pərakəndəçiliyinin mükəmməlliyini qeyd etdik. Təcrübə göstərir ki, Almaniyada indi fəaliyyət göstərən güclü şirkətlər məhz güclü pərakəndəçilərin hesabına yaranıb. Bunu necə qəbul etmək olar? Bu gün heç kəsə sirr deyil, muxtar respublikamızda istehsal olunan ərzaq və qeyri-ərzaq məhsulları keyfiyyətinə görə üstün mövqeyə malikdir. Bu məhsulları uzun müddət istifadə edən istehlakçılar heç zaman əcnəbi istehsalı olan eyni məhsula pul xərcləmək istəmir. Bu düşüncə isə istehsalçılara keyfiyyətsiz məhsul istehsal etməyə fürsət vermir. Nəticədə, keyfiyyəti müasir standartlara cavab verən istehsal müəssisələrinin sayı getdikcə artır.

Sonda bir məsələni də nəzərə çatdırmaq istərdik ki, pərakəndəçiliyin inkişafı istehlakçılara yeni xidmət mədəniyyətini aşılayır.

Bu gün ticarət şəbəkələrindən istənilən məhsulu alan şəxs onu nağdsız formada ödəyə, ödədiyi məbləğə görə qəbzlə təmin edilə, məhsuldan razı qalmırsa, ticarət qaydalarına uyğun şəkildə onu geri təqdim edə bilir. Əgər istəsə, istehlakçı hüquqlarından istifadə edərək hər hansı məhsulla bağlı şikayət və təkliflərini də verə bilər. Bütün bunlar onu göstərir ki, pərakəndəçilik daim inkişaf edən sektordur və biz təkcə iqtisadiyyatda deyil, həyatda da baş verən yeniliklərin çoxunu buradan öyrənirik.

***P.S. 5-10 il bundan əvvəl məktəbli çantalarına yalnız şagirdlər üçün dərs ləvazimatları qoyulurdu. Azyaşlı uşaqlar gün ərzində maye qəbuluna çox meyilli olduğuna görə ayıq marketoloqlar bu ehtiyacı nəzərə alıb onlar üçün kütləvi su qablarının istehsalına başladılar. Artıq bu gün həmin su qabları digər məktəbli ləvazimatları kimi vacib bir aksesuara çevrilib. Bəziləri bunu "indi hər şeydən pul qazanırlar" kimi qəbul edir, ağıllı marketoloqlar isə insanların ehtiyaclarını daha münasib şəkildə ödəməyə çalışırlar.***

**Səbuhi HƏSƏNOV**

## Şum qaldırılması sürətlə davam etdirilir



Muxtar respublikamızda əhalinin əsas məşğulluq sahəsi olan kənd təsərrüfatının inkişafına göstərilən dövlət qayğısı sayəsində bu sahəyə maraq getdikcə artır. Diyarımızın bütün bölgələrində aqrar sahədə qazanılan uğurlar da bununla bağlıdır. Ordubad rayonunda da son illər əldə edilən nailiyyətlər nəzərəçarpacaq dərəcədə diqqət çəkir. "Kənd təsərrüfatı məhsullarının istehsalçılarına dövlət dəstəyi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 23 yanvar tarixli Sərəncamının icrası ilə bağlı məhsul istehsalçılarına istifadə etdikləri yanacaq, motor yağlarına görə yardımların və gübrələrin verilməsi diqqətdə saxlanılır.

Rayonda torpaq mülkiyyətçilərinin daha çox məşğul olduğu sahələrdən biri taxılçılıqdır. Bu ilin məhsulu üçün ötən ilin payızında 1678 hektar sahədə aparılmış əkindən 4747 ton taxıl tədarük edilib. Hektarın orta məhsuldarlığı 28,2 sentnerə çatdırılıb. Rayonun Dəstə, Vənənd, Aza, Düylün və digər kəndlərində məhsuldarlıq daha yüksək olub.

Çəkdikləri zəhmətin bəhrəsini verdiyini görən torpaq mülkiyyətçiləri yenə də sahələrdədir. Onlar gələn ilin bol məhsulunun əsasını qoymaq üçün şum qaldırılması ilə məşğuldurlar. Artıq sahələrə şum traktorları çıxarılıb. Sentyabr ayının 1-nə olan məlumata görə, 245 hektar sahədə şum qaldırılıb. Mexanizatorlar şumun keyfiyyətlə aparılmasını diqqət mərkəzində saxlayıblar. Bu təsərrüfat tədbirinin vaxtında başa çatdırılması üçün rayonda hərtərəfli şərait yaradılıb.

**Xəbərlər şöbəsi**

## Hacıvar kəndində yeni istehsal sahəsi yaradılıb

*Muxtar respublikada əlverişli biznes və sahibkarlıq mühitinin yaradılması iqtisadi inkişafda özəl bölmənin gücünü bir neçə dəfə artırıb.*





Ötən dövr ərzində dövlət maliyyə dəstəyi hesabına yaradılan istehsal sahələri öz məhsulları ilə daxili bazarda yüksək imic formalaşdırıb, ərzaq təhlükəsizliyinə töhfələr veriblər. Bir sözlə, zamanında idxal hesabına ödənilən tələbat indi Naxçıvanda istehsal olunan məhsullar vasitəsilə qarşılanır. Bu isə muxtar respublikanın sürətli sosial-iqtisadi inkişafının bariz nümunəsidir.

Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyindən aldığımız məlumata görə, 2018-ci ilin ötən dövrü ərzində Babək rayonunda istehsal müəssisələrinin fəaliyyəti genişlənib, 8 yeni müəssisə fəaliyyətə başlayıb. Ötən aylarda yaradılan yeni istehsal sahələrindən biri də Hacıvar kəndində yerləşir. Emal müəssisəsi fiziki şəxs İlqar Mirzəyevə məxsusdur. Burada keçi və inək qatığı, şor, kəsmik, qaymaq olmaqla, ümumilikdə, 7 növdə ağartı məhsulu istehsal olunur.

Sahibkar Culfa rayonunun Kırna kəndində yeni heyvandarlıq təsərrüfatı qurub və xammal həmin yerdən müəssisəyə çatdırılır. İlqar Mirzəyevin sözlərinə görə, emal olunan məhsullar qısa bir vaxtda daxili bazarda rəğbət qazana bilib. Burada yeni iş yerləri açılıb, 2 nəfərin məşğulluğu təmin olunub.

**Muxtar RZAZADƏ**

*Bütün dövrlərdə ictimai-siyasi hadisələr, sosial problemlər, qayğılar, yaxud uğurlar ədəbiyyatın mövzu mənbəyi olub. Xalqımızın yaşadığı şanlı tarix Azərbaycan tarixi ilə yanaşı, milli ədəbiyyatımızda da öz əksini tapıb. Tarix səhnəsində baş verən təlatümlər, ağrı-acılar, müharibələr, ideoloji dəyişikliklər, faciələr, bəzən sevinclər, qələbələr, bəzən Sabirsayağı gülüşlər söz sənətimizin, ədəbiyyatımızın mövzu dairəsini genişləndirib.*

# Doğma yurdumuzun inkişaf və tərəqqi ahəngi poetik ruhumuzda



Təkcə XX əsr Azərbaycan ədəbiyyatına nəzər salsaq görərik ki, bu dövrdə dəfələrlə mövzu dəyişikliyi yaşanıb. Xurafatı, cəhaləti qamçılayan əsərlər, mövzu etibarı ilə öz yerini sosializm quruluşuna aid əsərlərə, müharibə mövzusunda yazılmış bədii nümunələrə, XX əsrin sonlarına doğru istiqlal atəşi, azadlıq eşqi ilə qələmə alınan əsərlərə verdi. Təbii ki, müstəqillik illərində də ədəbiyyata yeni mövzular daxil oldu. Bu gün də ədəbi mühit yeni mövzular axtarışındadır. Bir sözlə, istənilən dövrün ictimai-siyasi, tarixi hadisələri, sosial həyatı ədəbi prosesə birbaşa təsir edir.

Ötən illərdə xalqımızın rastlaşdığı bütün çətinliklər qarşısında mərdliklə dayanması, mübariz yaşaması, öz külündən köz almağı bacarması taleyin bir lütfüdür. Dəfələrlə uçurumun kənarından dönən Odlar yurdu bu gün dünyanın diqqət mərkəzindədir. Bununsa təməlində min bir zəhmət, fədakarlıq, cəsarət və verilən qurbanlar naminə qazandığımız müstəqillik dayanır.

Müstəqillik qazandıqdan sonra ölkəmiz sürətli inkişafa qədəm qoydu. Bütün sahələrdə böyük uğurlara imza atdı. Elm, təhsil, mədəniyyət, idman, səhiyyə, ordu quruculuğu, sənaye, ticarət və başqa sahələr özünün yeni həyatını yaşamağa başladı. Söz yox ki, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan da bu böyük inkişafa öz töhfələrini verməkdədir. Muxtar respublikada qısa zaman çərçivəsində genişmiqyaslı quruculuq işləri vüsət aldı. Nəqşicahan illər ötdükcə, sözün əsl mənasında, cahanın nəqşinə çevrildi.

Naxçıvanın bu inkişafı buradakı ədəbi mühitin nəzər-diqqətindən kənarda qalmadı. Şairlərimiz qədim-yeni Naxçıvanın ecazkar təbiətini, müasir libasını tərənnüm etməyə başladılar. Salınan bağlar, xiyabanlar, abad yollar, tikilən yeni binalar, istirahət mərkəzləri, aləmə ətir saçan gülzarlıqlar öz misralarını axtaran şairlərə ilham mənbəyi oldu. Şair Əziz Azərin dediyi kimi:

*Qədim şəhər indi olub Növcavan,*
*Bağ-bağçalar, xiyabanlar al-əlvan.*
*Köhnəlikdən qalmayıbdır bir nişan.*
*Şəhər olub şəhərlərin sultanı –*
*Tanımadım Naxçıvanı.*

Göründüyü kimi, muxtar respublikaya yeni həyat verən əllər, öz növbəsində, ədəbi mühitə də yeni mövzu gətirib. Çünki əsl şair öz sevincini, kədərini unudub xalqının sevinc və kədərini özününküləşdirir. Xalqın xoş günü qələm sahiblərini Naxçıvanın şəninə şeirlər qoşmağa, yazıb-yaratmağa, bu qədim diyarı tərənnüm etməyə sövq edir. Şair Həsənəli Eyvazlı öz duyğularını belə dilə gətirir:

*Yurdumuz başdan-başa abadlaşır, qurulur,*
*Quruculuq işləri, günbəgün vüsət alır,*
*Hər kənddə, hər şəhərdə, neçə məktəb ucalır,*
*Susuz, şoran düzlərə, kanal açır, su çəkir,*
*Neçə-neçə kəndlərə, körpü salır, yol çəkir,*
*Naxçıvan – Ana yurdum, günbəgün gözəlləşir.*

Hər hansı şair yaradılan şəraiti öz şeirində dilə gətirirsə, bu, bir tərəfdən şairin vətəndaş mövqeyini ifadə etməklə yanaşı, digər tərəfdən bütün bu yaradılanların təkcə bu gün üçün deyil, həm də gələcək nəsillər üçün miras olduğunu aşılayır.

Bizə bəxş olunan firavan həyat, müasir şərait, şübhəsiz, heçdən yaranmayıb. Bunun arxasında gərgin əmək, min bir zəhmət dayanır. Ədəbiyyatın öz üzərinə götürdüyü missiyalardan biri də illər uzunu çəkilən zəhmətin nəticəsini bədii müstəvidə göstərməkdir. Şair Asim Yadigar yazır:

*Gəlin kimi bəzənib*
*Bu gün kəndim, şəhərim.*
*Əriyibdi şam kimi*
*Daha qəmim, kədərim.*
*Nurludur gecələrim,*
*İşıqlıdır şəhərim.*

Başqa belə bir nümunəni Sürəyya Nəsibin yaradıcılığında görürük:

*Daha azad olub dar küçələrdən,*
*İnsanlar uzaqdır şər, ləkələrdən,*
*Şəstlə demək olar nəticələrdən,*
*Naxçıvan əvvəlki Naxçıvan deyil.*

Muxtar respublikada həyata keçirilən yenidənqurma işlərindən danışarkən tarixi abidələrimizin bərpasından söz açmasaq, olmaz. Məhv olmaq təhlükəsi ilə üzləşən, uzun illər tikanlı məftillər arxasında ögey münasibət görən, zirvədə arabir gələn ziyarətçilərini qarşılayan, toz-torpaq içərisində itib-batan abidələrimiz bu gün ikinci həyatını yaşayır. Gülüstan, Əlincəqala, Qarabağlar və digər tarix-memarlıq abidələrimiz bu sıradadır. Bu isə tariximizin yerli əhali ilə yanaşı, minlərlə turistə təbliği deməkdir. Vətəndaşlıq yanğısı ilə yazıb-yaradan şairlərimiz milli tarixi yaddaşa göstərilən qayğıya da biganə qalmayıblar. Tarixi abidələrə göstərilən qayğı şair Muxtar Qasımzadəni də riqqətə gətirib:

*Mən Naxçıvanqala adlı, daş qanadlı,*
*Çöhrəsindən nurələnən, təzələnən*
*Ehtişamın şöləsinə üz tuturam.*
*Ulu yurdun qibləsinə –*
*Nuh babamın türbəsinə üz tuturam.*
*Göstərirəm yerə, göyə nəğmə qala,*
*söz qalamı.*

Şair Elxan Yurdoğlu isə tariximizlə bağlı öz duyğu və düşüncələrini bu cür qələmə alır:

*Çatdım Əlincənin tarixinə mən,*
*Dayandım, xəyala daldım, düşündüm.*
*Özümə bir sual verdim: Niyə mən*
*Bu haqda bir əsər yazmayım bu gün?*

Naxçıvanda görülən işlərdən, qədim yurdun şəninə yazılmış şeirlərdən çox yazmaq olar. Ancaq məsələ burasındadır ki, bu inkişafı, bu gözəlliyi sözlərlə ifadə etmək olduqca çətindir. Nə qədər söz sərf etsək də, Naxçıvanımızın hüsnünü natamam təsvir edəcək. Şair Elxan Yurdoğlunun dediyi kimi:

*Məndən Naxçıvanı soruşma, dostum,*
*Mən sənə nə deyim axı tam olsun.*
*Gəzib görməmisən bu tərəfləri,*
*Qorxuram nə desəm natamam olsun.*

**Əhməd ƏHMƏDOV**

# Bənzərsiz təbii şəfa mənbəyi – *Duzdağ Fizioterapiya Mərkəzi*



*Bəşəriyyətin beşiyi Naxçıvan, həqiqətən də, sirli-sehrli bir diyar, möcüzələr məkanıdır. Onun özünəməxsus coğrafi relyefi və təbiəti var. Burada yay fəsli quru kontinental iqlimlə müşahidə olunur, qışda isə əksinə, sərt şaxtalı hava hakim kəsilir. Dağlıq və dağlıq-düzənlik ərazilərə malik olan muxtar respublikamızın relyefi özünün cazibədarlığı ilə seçilir.*

Bu qədim diyarın köksündə vüqarla dayanmış dağların alt qatlarında nələr yoxdur ki? Onlarla növdə tikinti materialları üçün xammal yataqlarından tutmuş duz laylarınadək, müxtəlif metal yataqlarından tutmuş mineral tərkibli bulaqlaradək bəşər övladının istifadəsinə verilmiş saysız-hesabsız zənginliklər. Bunlardan Duzdağ mağarası isə Uca Yaradanın bəşəriyyətə böyük bir lütfüdür. Çünki burada dövrümüzün bəlası hesab edilən bronxial-astma xəstələrini ana təbiətin özü müalicə edir. Həm də heç bir əks-təsiri olmadan.

Naxçıvanın şəhər kimi formalaşmasında Naxçıvan duzunun, Duzdağın böyük əhəmiyyəti olub. Aparılan tədqiqatlar da belə deməyə əsas verir ki, Naxçıvan şəhərinin formalaşması 5-7 min il bundan əvvəl Naxçıvanda ilk dəfə duzun çıxarılması ilə başlanıb. II əsrdə yunan alimi Klavdi Ptolomey, XVI əsrdə ərəb alimi Əl-Şərifi, XIX əsrdə rus alimi Konstantin Nikitin və bundan sonrakı dövrlərdə tədqiqat işləri aparan yerli tarixçilərimiz öz əsərlərində Naxçıvan şəhərinin formalaşmasının Nuh Peyğəmbərlə və duzun çıxarılması ilə bağlı olduğunu qeyd ediblər. Təbii ehtiyatları 90 milyon ton olan Duzdağda mənbələrə görə, Nuh Peyğəmbərin dövründən duz çıxarılmağa başlanılıb. Şöhrəti dünyaya səs salan İpək Yolundan əvvəl Naxçıvan ərazisindən Yaxın Şərq ölkələrinə "Duz yolu" uzanıb. Həmin ölkələrə buradan duz daşınıb. Etnoqrafik məlumatlara əsasən Duzdağdan açıq üsulla duz çıxarılması XX əsrin ortalarına qədər mövcud olub. Sənaye üsulu ilə Duzdağdan 1927-ci ildən başlayaraq duz çıxarılıb. Bu dağ təkcə saf və təmiz duzuna görə deyil, yuxarıda da qeyd etdiyimiz kimi, həm də şəfaverici xüsusiyyətinə görə tanınıb. 1979-cu ildə qədim duz mədənlərinin bazasında yaradılan Duzdağ Fizioterapiya Mərkəzində hazırda bronxial-astma və ağciyər-bronx sisteminin digər qeyri-spesifik xəstəliklərindən əziyyət çəkən insanlar müalicə olunurlar.

Yer altındakı duz dağının qalınlığı 8,2 metrə bərabər olan mərkəzdə oksigen və zəngin duz minerallarının yaratdığı hava bir çox xroniki xəstəliklərin müalicəsində müstəsna rola malikdir. Dəqiq qeyd etsək, burada duz layları arasında oksigen havanın 20 faizini təşkil edir ki, bu da ağciyər xəstəliklərindən əziyyət çəkənlərə təbiətin bəxş etdiyi ən gözəl dərmandır. Oksigen və zəngin duz minerallarının yaratdığı hava ağciyər xəstəlikləri – bronxial-astma və bu kimi xroniki xəstəliklərin müalicəsində müstəsna rola malikdir. Havanın temperaturu isə sabitdir – 18-20 dərəcə, nisbi rütubət 24-50 faiz arasında dəyişir. Duzun tərkibindəki zəngin minerallar və kimyəvi elementlər də orqanizmə müsbət təsir göstərir.

Vaxtilə burada müalicə almaq üçün kifayət qədər lazımi şərait yox idi. Ancaq Naxçıvan Muxtar



Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun böyük diqqəti və qayğısı sayəsində 2008-ci ildən mərkəzdə pasiyentlər, tibbi və digər personal üçün hərtərəfli müasir şərait yaradıldı və bura ağciyər xəstəliklərindən əziyyət çəkənlərin ümid yerinə çevrildi. Təsadüfi deyil ki, son illər Duzdağ Fizioterapiya Mərkəzi hər il orta hesabla 3500-4000 arasında xəstə qəbul edir.

Mərkəzdə ölkəmizin dəniz sahili və rütubətli bölgələri olan Bakı və Sumqayıt şəhərləri ilə yanaşı, Quba, Qusar, Qəbələ, Şəmkir, Goranboy, Bərdə, Yevlax, habelə Lənkəran və Masallıdan, o cümlədən Türkiyə, Gürcüstan, Ukrayna, İran, Rusiya, Tacikistan, Qazaxıstan, Özbəkistan, Almaniya, Hollandiya, Avstriya, İngiltərə, Fransa kimi bir sıra xarici ölkələrdən gələn insanlar yuxarı tənəffüs yolları xəstəliklərinin müalicəsi üçün əlverişli imkan tapırlar.

Onu da deyək ki, bəzi xarici ölkələrdə də Duzdağda olduğu kimi, təbii müalicə məkanları vardır. Məsələn, Polşanın Krakov şəhərində, Ukraynanın Ujqorod şəhərinin Solotvino qəsəbəsində, o cümlədən Qırğızıstanda duz şaxtası mövcuddur. Ancaq möcüzələr diyarı Naxçıvandakı Duzdağ öz müalicəvi əhəmiyyətinə görə digərlərindən çox fərqlənir və bir neçə cəhətdən üstündür. Məsələn, bunlar arasında



ən yaxşı müalicə ocağı kimi tanınan Ukraynadakı xəstəxana yerin 206 metr dərinliyində yerləşdiyindən xəstələr buraya liftlə enməli olurlar. Bu isə təzyiqin birdən-birə dəyişməsinə və xəstələrin səhhətlərinin pisləşməsinə gətirib çıxarır. Bu şaxtada rütubətin, partlayıcı gücə malik metan kimi zəhərləyici qazların normadan çox olması da ciddi fəsadlara yol aça bilər. Naxçıvandakı şaxtalar isə dağın altında horizontal şəkildə yerləşdiyindən bu kimi halların baş verməsi mümkün deyildir. Burada havada zərərli qazlar birmənalı şəkildə yoxdur. Əksinə, yuxarıda qeyd etdiyimiz kimi, "duz tuneli" oksigenlə zəngindir. Buraya gələn xəstələrin, təxminən, 300 metr məsafəni yeriyərək qət etməsi isə yeraltı şöbədəki havaya tədricən öyrəşmək imkanı yaradır. Məhz buna görə də hər il minlərlə insan Naxçıvana – Duzdağ Fizioterapiya Mərkəzinə üz tutur, burada şəfa tapır. Eyni zamanda Duzdağın və Naxçıvan şəhərinin qədim tarixi, burada yaradılmış Duz Muzeyi də tanışlıq məqsədilə gələn turistlər üçün çox gözəl fürsət deməkdir.

*Təbii şəfa mənbəyinin Naxçıvanda yerləşməsi təsadüf ola bilməz. Axı Nuh Peyğəmbərin diyarı olan Naxçıvan tarixən bəşəriyyətin xilas yeri kimi xatırlanıb. Əshabi-Kəhf ziyarətgahının, imamzadələrin, nəhayət, Peyğəmbər məzarının olduğu bu müqəddəs torpaqda insanlara əzab verən xəstəlikləri müalicə edən təbii şəfa mənbələrinin olması çox şeyi izah edir. Duaların qəbul olunduğu məkan Əshabi-Kəhf bizə mənəvi saflıq, Duzdağ isə şəfa bəxş edir. Necə deyərlər, Böyük Yaradan Naxçıvandan möcüzələrini, heç bir maddi və mənəvi zənginliyi əsirgəməyib.*

**Rauf KƏNGƏRLİ**

## Şahmat birincilikləri keçirilir



Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının rayon bölmələri və Gənclər və İdman idarələrinin təşkilatçılığı ilə muxtar respublikada şahmat birincilikləri təşkil olunur. Birincilikləri keçirməkdə məqsəd məktəblilər arasında bacarıqlı və istedadlı şahmatçıları üzə çıxarmaq, onlar arasında idman və dostluq əlaqələrini inkişaf etdirməkdir.

Sədərək Rayon Uşaq-Gənclər Şahmat Məktəbində keçirilən federasiyanın kuboku uğrunda rayon birinciliyində 52 oğlan və qız şahmatçı mübarizə aparıb. Yarış 3 gün davam edəcək.

Babək rayonunda da şahmat birinciliyinə start verilib. Birincilikdə 60 zəka sahibi (40 oğlan və 20 qız) mübarizə aparır.

Kəngərli Rayon Gənclər və İdman İdarəsi və Şahmat Federasiyasının rayon bölməsinin birgə təşkilatçılığı ilə keçirilən federasiyanın kuboku uğrunda birincilikdə isə 12 məktəbdən 50 şagird iştirak edir.

Şahbuz rayonunda da şahmat birinciliyinə start verilib. Yarışda 23 məktəbin 80-nə yaxın zəka sahibi mübarizə aparır.

Analoji birincilik Culfa rayonunda da təşkil edilib. Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının kuboku uğrunda rayon birinciliyində 54 zəka sahibi ağ-qara taxtada mübarizə aparır.

Qeyd edək ki, sonda qalib gələn şahmatçılara muxtar respublika mərhələsində iştirak etmək üçün sertifikatlar və diplomlar təqdim ediləcəkdir.

* * *

Muxtar respublikada ahıl vətəndaşların cəmiyyətə daha fəal inteqrasiyası üçün hərtərəfli şərait yaradılıb. Bu istiqamətdə həyata keçirilən tədbirlərin davamı olaraq 1 oktyabr – Beynəlxalq Ahıllar Günü münasibətilə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyası və Ağsaqqallar Şurasının birgə təşkilatçılığı ilə Naxçıvan şəhərində yerləşən Şahmat Mərkəzində ahılların iştirakı ilə şahmat üzrə yarış keçirilib.

Yarışın yekun nəticələrinə əsasən Adil Sevdimalıyev, Rəşid Sultanov və Yavər Tanrıverdiyev ilk üç pillədə qərarlaşıblar. Müsabiqənin yekununda qaliblərə və digər iştirakçılara hədiyyələr təqdim edilib.

*Hacıvar kənd tam orta məktəbində məktəblilər üçün "Sosial şəbəkələrin müsbət və mənfi xüsusiyyətləri" mövzusunda seminar keçirilib.*

## Şagirdlər üçün seminar



Babək Rayon Gənclər və İdman İdarəsinin əməkdaşı Aytəkin Süleymanova tədbirdə çıxış edərək bildirib ki, yeniyetmə və gənclər sosial şəbəkələrin əhəmiyyətliliyi ilə yanaşı, mənfi xüsusiyyətlərini də bilməli, onlardan istifadə edərkən mütləq məlumatlı və çox diqqətli olmalıdırlar. Bu sahədə ən vacib məqam insanların maarifləndirilməsidir. Buna görə də yeniyetmə və gənclər arasında mütəmadi olaraq maarifləndirmə tədbirləri, seminarlar keçirilir. Ailədə və təhsil ocaqlarında asudə vaxt düzgün müəyyənləşdirilərsə, yeniyetmə və gənclər virtual aləmə deyil, real fəaliyyətə üstünlük verərlər.

Qeyd edək ki, seminar Babək Rayon Gənclər və İdman İdarəsinin, Təhsil Şöbəsinin və Yeni Azərbaycan Partiyası Babək Rayon Təşkilatı Gənclər Birliyinin təşkilatçılığı ilə keçirilib.

**Ceyhun MƏMMƏDOV**

## "Gənclikdən uğur stansiyasına" adlı ikigünlük təlim başa çatıb

Naxçıvan Muxtar Respublikasının Gənclər Fondunun təşkilatçılığı ilə Gənclər Mərkəzində "Gənclikdən uğur stansiyasına" adlı ikigünlük fərdi inkişaf təlimi keçirilib.

AMEA Naxçıvan Bölməsinin doktorantı, "Azər-Türk Bank" ASC-nin Naxçıvan Filialının müdiri, təcrübəli təlimçi Vüsal Novruzov və bölmənin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun böyük elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru, gənc yazar Nərgiz İsmayılova auditoriyaya xitab edib.

İlk gün Vüsal Novruzovun təqdimatında "Mən kiməm?", Nərgiz İsmayılovanın təqdimatında isə "Yaradıcı yazarlıq" mövzularında təlimlər keçirilib. İkinci gün isə "Uğurlu təqdimat" və "İnformasiyanın gücü" mövzularına həsr olunan təlimlər gənclər tərəfindən maraqla qarşılanıb.

Təlimin praktik hissəsi isə mövzuların asan mənimsənilməsi üçün yarışmalar, sual-cavab və "Hekayəmi hekayəndə tamamla" kimi rubrikaları ilə yadda qalıb.

Sonda iştirakçılara sertifikatlar verilib.

**Xəbərlər şöbəsi**

## Pediatrik stomatologiyanın aktual məsələləri müzakirə olunub

Dünən Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasında "Pediatrik stomatologiyanın aktual məsələləri" mövzusunda keçirilən elmi-praktik seminarı xəstəxananın baş həkimi Rəhim Rəhimov açıb.

Bildirilib ki, muxtar respublikamızda fəaliyyət göstərən tam orta məktəblərdə tibbi xidmətin keyfiyyətinin yüksəldilməsi, səmərəliliyinin artırılması həyata keçirilən səhiyyə islahatlarında mühüm yer tutur. Səhiyyə müəssisələrinin maddi-texniki bazasının yaxşılaşdırılması, onların müasir tibbi texnika və ləvazimatlarla təchiz edilməsi, yeni tibbi texnologiyaların tətbiqi, kadrların peşə səviyyəsinin artırılması və digər tədbirlər uşaqlara göstərilən tibbi xidmətin keyfiyyətinin yüksəldilməsinə imkan verir.

Sonra Stomatologiya şöbəsinin həkim-stomatoloqları Natəvan Rzayeva "Diş kariyesinin etiologiyası, təsnifatı, klinikası, müalicə və profilaktikası", Əli Məmmədov "Pulpitlər", Rövşən Babayev "Paradont xəstəlikləri" mövzularında məruzələr ediblər.

Məruzələr videosüjet, diaqram, cədvəl və slaydlarla müşayiət olunub, dinləyiciləri maraqlandıran suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

*Etnoqrafiyamız*

## Ənənəvi qış hazırlığı

*Ata-babalarımız qış hazırlığına hələ erkən yazda başlayardılar. Ənənəvi qış hazırlığında altı əsas mərhələ var idi. Əvvəla, o vaxtlar kirəmit, şifer olmadığı üçün evlərin dam örtüyünü ildə bir dəfə suvamaq lazım gəlirdi. Bu iş isə yayın sonları – payızın əvvəllərində görülərdi. Suvağın hazırlanması üçün çala qazılar, qazılmış torpağa saman qatılardı. Suvaq 7-10 gün ərzində hər gün qarışdırılar və gözləyərdilər ki, "dəysin". Suvağı çəkən zaman qohum və qonşular köməyə gələrdilər. Çünki bu işi, əsasən, dörd nəfər görərdi. Suvaqçəkən səriştəli adam olmalı idi.*



Qış hazırlığının ikincisi, daha doğrusu, ən vacibi bu fəsil üçün un tədarükünün görülməsi idi. Bu prosesdə həm kişilər, həm də qadınlar iştirak edərdilər. Buğdanın yuyulub-qurudulması, alaq toxumlarından təmizlənməsi qadınların üzərinə düşərdi. Dəyirmana taxılı daşımaq, növbə saxlamaq, üyütmək isə kişilərin işi idi. Su dəyirmanlarının istehsal gücləri aşağı, sayı isə az idi. Bəzi kəndlərdə isə dəyirman olmadığı üçün üyüdüləcək buğdanın qonşu kəndlərə aparılması çox zəhmət tələb edərdi. Hər kəs ailəsinin ehtiyacı qədər buğda üyüdər, yunla əyirilmiş ipdən toxunmuş çuvallara yığıb saxlayardı.

Etnoqrafiyamıza görə, üçüncü əsas məsələ qış yanacağının tədarükü idi. Ağac bol olan yerlərdə odunlar doğranar, bir tərəfdə çin vurularaq üstü örtülərdi. Evləri qızdırmaq üçün buxarıdan və kürsüdən istifadə edərdilər. Evləri tikən zaman divarda ocaq yeri qoyar, üst hissəsini boru şəklində hörərdilər ki, tüstünü çəkib aparsın. Ocağın (buxarının) qabaq hissəsi açıq olardı. Evlərin ortasında təndir qoyular, ya da çala qazılardı. Təndir yandırılar və köz düşməsini gözləyərdilər. Çalaya isə kənarda yanan odun közünü gətirib tökərdilər. Masanı (kürsü) çalanın üzərinə qoyar, onun üzərinə isə kürsü yorğanını salardılar. Yorğanın üzərindən xüsusi toxunmuş kürsü palazı açardılar. Ailənin sayına görə masanın ölçüsü fərqli olardı.

Əsas qış qayğılarından biri də mal-heyvanın qış azuqəsini tədarük etmək, tövlələrdə isti şərait yaratmaq idi.

Ərzaq tədarükünə gəldikdə isə yarma, əriştə, qovurma, müxtəlif növ şoraba, mürəbbə və kompotlar hazırlanır. Yarma üçün ağ, yumşaq buğda növü və ya pərinc seçilir. Bunun üçün əvvəldən arıtlanmış buğda qaynadılır, sonra sərilib qurudulur. Qurumuş buğda əl daşında (kirkirə) çəkilib xırdalanır. Xəlbirdən ələyərək un hissəsi seçilir. Yarmanı dağarçıqlarda, qurudulmuş, uzun boğazlı, yumru qabaqların içərisinə yığıb saxlayırlar. Quruyanda yalnız nazik qabığı qalan bu qabaqlar 4-5 kiloqram məhsul tutur, havalandığı üçün məhsul yaxşı qalır. Yarmadan yarma plovu, eyni zamanda şilə, əriştə ilə qarışdırılaraq çəkmə bişirilir. "Azərbaycan dilinin izahlı lüğəti"ndə "şilə" sözünün "düyüdən bişirilmiş sulu xörək" mənasında olduğu qeyd edilib. Ona görə də





Naxçıvanda buğda yarmasından bişirilmiş xörək növünə "şilə" deyilir.

1727-ci il "Naxçıvan sancağının müfəssəl dəftəri"ndə olan məlumata görə, Naxçıvanın, demək olar ki, bütün kəndlərində pərinc əkilmiş, bir-iki ton arası məhsul götürülmüşdür. Naxçıvanda pərinc yeməklərdə düyünü əvəz etmiş, ondan şilə də hazırlanmışdır. Maraqlıdır ki, həmin dövrün məlumatına görə, buğda düyü ilə pərincdən, demək olar ki, iki dəfə baha olmuşdur.

Əriştə ta qədimdən mətbəximizdə ən çox işlənən ərzaqlardandır. Əriştə kəsmək ağır iş olduğu üçün qohum-qonşu bir-birinə əl tutur, iməcilik edirlər. Adətən, əriştənin kəsilməsində 5 nəfər iştirak edir. Bir nəfər kündə açır, o biri əriştəni kəsir, ikisi dəstə vurur, digəri isə daşıyıb ipdən asır. Əvvəllər əriştəni qəməlti (mətbəx bıçağı) ilə əldə kəsirdilər. Müasir əriştəkəsən alət 5-6 əriştəni birdən kəsməklə yanaşı, eyni ölçüdə doğrayır. Dəstəkçilər kəsilən əriştəni iki əllə silkələyir, əriştə nazikləşməklə yanaşı, həm də uzanır. İpdə quruyan əriştələr sacda qovrulur. Dəstəyə gəlməyən qısa və enli əriştələr "alt əriştə" adlanır. Bu əriştələr aşağı keyfiyyətli əriştə hesab edilir. Dövrümüzdə əriştə kəsilməsinə avqust ayından başlanılsa da, vaxtilə əriştəni payızın ikinci ayında, soyuq düşən zaman kəsərdilər. Yaşlıların dediyinə görə, soyuq vuranda ipə asılmış əriştə uzanıb nazikləşir. Əriştə kəsən zaman sulu əriştə bişirilməsi adət halını almışdır. Əriştədən əriştə aşı (çəkmə) bişirilir. Çəkmə bişirən zaman əriştə qaynadılır və içərisinə bir qədər quru ərik atılır. Bişənə yaxın xırda doğranmış qovurma tikələri ilə soğan qovurulur, xörəyə əlavə edilir. Əriştə plovu bişirilən zaman, adətən, əriştəni qaynar suda bir qədər saxlayıb aşsüzənə töküb üstünə soyuq su gəzdirirlər. Əriştə qazana tökülür, üstünə yağ əlavə edilib dəmə qoyulur. Plov bişirən zaman əriştəyə bəzən düyü və ya yarma qatılır. Əriştə plovu, adətən, üz-gözsüz (qarasız) yeyilir.

Qış hazırlığının biri də qovurmadır. Bu proses isə əsasən, oktyabr-noyabr aylarında aparılır.

Göründüyü kimi, ənənəvi qış hazırlığı ta qədimdən ata-babalarımızın əsas qayğılarına çevrilib. O dövrdə çətinliklə də olsa, bu proses vaxtında aparılardı. Müstəqillik illərindən etibarən isə bu qayğılardan azad olmuşuq. Çünki muxtar respublikamız sürətli sosial-iqtisadi inkişafa qovuşub və kəndlərimizdə müasir infrastruktur yaradılıb, müasir layihə əsasında evlər qurulub. Digər bir tərəfdən, enerji təhlükəsizliyi tam təmin edilib.

Blokada şəraitində yaşamasına baxmayaraq, Naxçıvanda alternativ və bərpaolunan enerji mənbələrindən istifadə edilir. Qaz və işıq fasiləsiz verilir, yaşıllıqlar enerji mənbəyinə yox, sağlam ekoloji mühitə, iqtisadi inkişafa töhfə verir. Bir mühüm məqam isə odur ki, muxtar respublikamızda ərzaq təhlükəsizliyi tam təmin olunub. Naxçıvanda istehsal olunan çeşid-çeşid məhsullar daxili tələbatı ödəməklə yanaşı, ölkə və xarici bazarlara da çıxarılır, böyük alıcı rəğbəti qazanır. Bundan başqa, müstəqillik illərində əkin-biçinlə məşğul olanlara dövlət yaxşı şərait yaradıb. İldən-ilə torpaqların məhsuldarlığı artırılır, mövcud su dəyirmanları təmir olunaraq istifadəyə verilir, yeni dəyirmanlar inşa olunur. Bir sözlə, Naxçıvan kəndlisinin çörəyi yenə də öz təknəsindəndir. Amma bu dəfə daha rahat və yaxşı üsullarla...

**Zaleh NOVRUZOV**


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ramiyyə Əkbərova

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1490. Sifariş № 708